Ədalət.- 2023.- 19 may. S. 6.



Fərəc
Fərəcov

# O, Heydərdi, ana yurdun haqq səsidir, Millətimin əbədilik nəfəsidir

## ZƏFƏR PARADI

*"Qələbə" silsiləsindən*

Torpağa pir deyən ərənlərim var,
Düşməni yerlə bir sərənlərim var,
Qələbə meyvəsin dərənlərim var.
Baxın, qürur saçır bəhrəsi, dadı,
Müzəffər ordumun Zəfər paradı.

Canım Qarabağın bitdi savaşı,
Dəyişdi yurdumun kirli havası,
Çin oldu elimin, xalqın duası.
Daha söylənməsin bəxtim qaradı,
Artıq mənimkidir Zəfər paradı.

İlhamla Ərdoğan dayanıb qoşa,
Köksü zəhərlilər düşüb çaş-başa.
Var ol Odlar yurdum, Türkiyəm, yaşa!
Qardaş qardaşını tapdı, aradı,
Birlikdə yapdılar Zəfər paradi.

İlahi, bu nə gün, bu nə büsatdır,
Hamı çal-çağırda, ürəklər şaddır,
Bəlkə cənnət adlı yeni həyatdır
Ünvan Azərbaycan-Bakıdır adı,
Səs saldı dünyaya Zəfər paradı.

## QURTULUŞUM OLMASAYDI

Kim deyərdi sularımız durulacaq.
Boz çöllərə nəfəs dəyib can bulacaq.
Ellərimiz səksəkədən qurtulacaq.
Qurtuluşum, qurtuluşum olmasaydı.

Lənkəranım-Cənub qapım yad olmuşdu",
Fitnə-fəsad çırtma vurub şad olmuşdu,
Haqqın səsi yerindəcə boğulmuşdu.
Qurtuluşum, qurtuluşum olmasaydı.

Ana yurdum sınaqlarda tər tökürdü,
Üzərinə qara bulud, çən çökürdü.
Yazıq xalqım, nə düşünür, nə çəkirdi,
Qurtuluşum, qurtuluşum olmasaydı.

Doğram-doğram doğranırdı qədim torpaq,
Xırdalanıb tökülürdü yarpaq-yarpaq.
Üzülürdü, verən yoxdu xoş bir soraq,
Qurtuluşum, qurtuluşum olmasaydı.

Başçı zəif, sükan naşı əldə idi,
İş hardaydı, nə vardısa dildə idi.
Taleyimiz bir çürüyən teldə idi.
Qurtuluşum, qurtuluşum olmasaydı.

Qurtuluşun yaradanı, quranı o,
Qurtuluşun zirvəsində duranı o,
Tez sağaltdı, sağalmayan yaranı o
O, Heydərdi, ana yurdun haqq səsidir,
Millətimin əbədilik nəfəsidir.

## İKİ DAHİ

*"Qələbə" silsiləsindən*

Dedi inanıram ona özüm tək,
Mətin addımlarla o, gedəcəkdir.
Edə bilmədiyim nə varsa bütün,
Əminəm, çalışıb, o, edəcəkdir.

Dahi bir atanın dilindən qopan,
Hər sözü, hər fikri tutdu dərindən.
Vətənin yükünü çəkib çiyninə,
Müzəffər əsgər tək qalxdı yerindən.

Sükanın əlinə aldı ölkənin,
Göstərdi gücünü, qətiyyətini.
Bəxş etdi elinə güzəran, rifah,
Sevdilər rəhbərin xoş niyyətini.

Mərdanə adladı hər bir sınaqdan,
Yaydı haqq səsini Azərbaycanın.
Şahanə qamətlə, iti ağılla,
Diqqətin cəlb etdi ərzi-cahanın.

İkili oyunlar, saxta sifətlər,
Anlatdı dünyanın astar üzünü.
-Hərblə ola bilməz! - Deyən kəslərə,
Dedi cəsarətlə, dedi sözünü.

Əks-hücum əmrini verdi o anda,
-Olar hərb! - Söylədi inamla, qəti
Qarabağ qisasın aldı cəng ilə,
Sübuta yetirdi əsl həqiqəti.

O, dövlət başçısı, o, Baş Komandan,
Ulu sələfinin yoluyla getdi.
Vətən savaşında dahi ər kimi
Öncə atasının ruhun şad etdi.

## UCALAN ABİDƏN

*(Culfada Heydər Əliyevin abidəsinin ucaldılması münasibətilə)*

Bu gün toy-büsatdır qoynunda sənin,
İnsanlar təbrikə axışıb gəlir.
Ay Culfa, çəkilib küləyin, çənin,
Göydən ulduzlar da sayrışıb gəlir.

Sanki hər tərəfdən yığıb şüasın,
Günəş qərar tutub başının üstə.
O da salamlayır ellər dühasın,
Liderə nəğmələr deyir ahəstə.

Yaşlı da, cavan da tər çiçək düzür,
Abidən önünə, -dahi önünə.
Qız-gəlin rəqs edir, qol açıb süzür,
Qarışır şənliyin insan selinə.

Heydər nəfəslidir təzə ünvanın,
Bu ünvan hüsnünə naxışdır-naxış,
Dəyişir hər ilin, hər günün, anın,
Yaradan əllərə alqış, min alqış.

Hər səhər, hər axşam yollarımıza,
Rəhbər "uğur olsun" söyləyəcəkdir.
Gərək qüvvət verək qollarımıza,
Ki sonra hesabat istəyəcəkdir!

Naxçıvan